




# CredAgro

Qeyri Bank Kredit Təşkilatı

## İLLİK HESABAT 2009

2009

# İNVESTORLAR

Avropa Yenidənqurma və İnkişaf Bankı ehtiyacları yerli bazarlar tərəfindən ödənilə bilməyən özəl sektor müştərilərinə əsasən investisiyalar yatırmaq vasitəsilə dünyanın 29 ölkəsində müxtəlif layihələri dəstəkləyən beynəlxalq maliyyə qurumudur (www.ebrd.org).

Dünya Bankı Qrupunun üzvü olan Beynəlxalq Maliyyə Korporasiyası (BMK) inkişaf etməkdə olan ölkələrdə özəl sektor üzrə fokuslaşan ən böyük qlobal inkişaf institutudur. BMK insanlara kasıblıqdan qurtulmaq və öz həyatlarını yaxşılaşdırmaq imkanı verir. BMK bunu daha çox insanı işlə təmin edə bilən və daha çox xidmətlər təqdim edə bilən bizneslərə investisiyalar yatırmaq, digərlərindən kapital toplamaq və davamlı inkişafa əmin olmaq məqsədilə məsləhət xidmətləri göstərmək vasitəsilə edir. (www.ifc.org)

BlueOrchard Finance dünya üzrə 42 inkişaf etməkdə olan ölkənin mikromaliyyə təşkilatlarına maliyyə ayıran aparıcı mikromaliyyə aktivləri təminatçısıdır. (www.blueorchard.org)

OikoKredit mikromaliyyə sektoruna özəl maliyyə cəlb edən dünyanın ən böyük maliyyə mənbələrindən biridir. Oikokredit inkişaf edən dünyada vasitəçi mikromaliyyə institutları vasitəsilə kiçik bizneslərə kreditlər ayırır. Oikokredit həmçinin ticarət korporativlərinə, yarmarka ticarəti təşkilatlarına birbaşa kreditlər verir və kiçik-orta müəssisələrin səhmlərini alır. (www.oikocredit.org)

Triple Jump Niderlandın paytaxtı Amsterdamda yerləşən mikromaliyyə investisiya təşkilatıdır. O, investorlara peşəkar maliyyə menecmenti xidmətləri təklif edir və mikromaliyyə institutlarına kreditlər və aktiv investisiyaları ayırır. (www.triplejump.eu)

KfW Entwicklungsbank (KfW İnkişaf Bankı) inkişaf etməkdə olan və keçid dövrü yaşayan ölkələrdə əhalinin iqtisadi və sosial həyat şəraitinin yaxşılaşdırılması üçün çalışır. Alman hökuməti adından həyata keçirdiyi maliyyə əməkdaşlığı vasitəsilə, o, dünya miqyasında yoxsulluğun azaldılması, milli sərvətlərin qorunması və sülhün təmin olunmasına öz töhfəsini verir. (www.kfw.de)

Symbiotics mikromaliyyə investorları və fondlar üçün investisiya vasitəçiliyi və mikromaliyyə sahəsinə investisiya xidmətləri təklif edir. (www.symbiotics.ch)

Developing World Markets (DWM-İnkişaf edən dünya bazarları) maliyyə aktivlərin idarəedilməsi və investisiya bankı olmaqla qlobal miqyasda davamlı iqtisadi və sosial inkişafa nail olmaq üçün sosial cəhətdən müsbət təsiri olan investisiyalar ayırır. (www.dwmarkets.com)

MicroVest dünya miqyasında yoxsulluq piramidasının aşağı pilləsində olan əhaliyə maliyyə xidmətləri ayıran mikromaliyyə təşkilatları və digər institutlar üçün kapitalın mobilizasiya ilə məşğul olan vasitəçidir. (www.microvestfund.com)

İncofin Investment Management (İncofin İnvestisiya Menecmenti) Belçikada yerləşən və 32 ölkədə 75 mikromaliyyə təşkilatı ilə işləyən aparıcı investordur. İncofin İnvestment Management geniş miqyaslı məhsullar, kreditlər, aktiv və zəmanətlər təklif edir. (www.incofin.be)

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Əsas Nəticələr | 2 |
| Müşahidə Şurası Sədrinin müraciəti | 3 |
| Missiya, Gələcəyə Baxış, Əsas Dəyərlər | 3 |
| Rəhbərliyin müraciəti | 4 |
| Müşahidə Şurası | 5 |
| İdarə Heyəti | 6 |
| CredAgro - Tarixi | 7 |
| Rəhbərliyin müzakirəsi, maliyyə vəziyyəti və əməliyyatların nəticələrinin təhlili | 8 |
| Fəaliyyətə ümumi baxış | |
| 2009-cu il üçün iqtisadi mühit | |
| Fəaliyyət İcmalı | |
| Gələcəyə Baxış | |
| Risklərin İdarəedilməsi | |
| Təşkilat və İşçi Heyəti | 12 |
| İnformasiya Texnologiyaları | 14 |
| Ən yaxşı filial - Cəlilabad | 14 |
| Uğur Hekayələri | 14 |
| Filial Şəbəkəsi | 15 |
| Müstəqil Auditorların Rəyi və  Maliyyə Hesabatları | 16 |

# ƏSAS NƏTİCƏLƏR

| | 2009 | 2008 | Dəyişiklik |
|---|---|---|---|
| **Balans Hesabları** | **ABŞ ('000)** | **ABŞ ('000)** | **%** |
| Likvid Aktivlər | 1,368 | 876 | 56.1% |
| Müştərilərə verilən kreditlər, cəmi | 44,615 | 51,245 | -12.9% |
| Kənd təsərrüfatı | 2,129 | 2,974 | -28% |
| İstehlak | 12,954 | 12,721 | 2% |
| Express | 12,722 | 7,062 | 80% |
| Lizinq | 1,419 | 3,243 | -56% |
| Digər | 2,466 | 3,789 | 35% |
| İstehsal | 587 | 1,041 | -44% |
| Ticarət | 12,337 | 20,414 | -40% |
| Kreditlər üzrə yaradılan ehtiyyatlar | 1,450 | 959 | 51.2% |
| Müştərilərə verilən kreditlər, xalis | 43,165 | 50,286 | -14.2% |
| Cəmi Aktivlər | 50,233 | 59,354 | -15.4% |
| Passivlər | 39,572 | 48,055 | -17.7% |
| Kaptal | 10,661 | 11,298 | -5.6% |
| **Gəlir və Xərc Hesabları** | **ABŞ ('000)** | **ABŞ ('000)** | **%** |
| Faiz Gəlirləri | 15,784 | 13,432 | 17.5% |
| Faiz Xərcləri | 4,598 | 4,458 | 3.2% |
| Faiz yaradan aktivlər üzrə ehtimal edilən zərər üçün ehtiyatlar | 4,141 | 497 | 732.6% |
| Xalis Mənfəət | 7,045 | 8,477 | -16.9% |
| Qeyri / Faiz Gəlirləri | 6,914 | 3,542 | 95.2% |
| Mənfəət vergisindən əvvəl gəlir | 710 | 4,940 | -85.6% |
| Xalis Mənfəət | 528 | 3,819 | -86.2% |
| **Əmsallar** | | | |
| Kapitalın gəlirliyi | 1.1% | 51.7% | -98% |
| Aktivlərin gəlirliyi | 0.2% | 9.7% | -98% |
| Əməliyyat məhsuldarlığı | 22.0% | 10.0% | 120% |
| Öhdəliklərin kapitala olan nisbəti | 371.2% | 425.3% | -13% |
| 30 gündən yuxarı riskdə olan protfel | 5.10% | 1.60% | 219% |
| **Digər** | | | |
| Aktiv kreditlərin sayı (cəmi) | 20,200 | 13,772 | 47% |
| Kənd təsərrüfatı | 280 | 290 | -3% |
| İstehlak | 11,507 | 8,906 | 29% |
| Ekspress | 7,109 | 2,984 | 138% |
| Lizinq | 80 | 134 | -40% |
| Digər | 212 | 239 | -11% |
| İstehsal | 29 | 45 | -36% |
| Ticarət | 983 | 1,174 | -16% |
| Verilən kreditlərin sayı | 16,761 | 11,192 | 50% |
| Verilən kreditlərin dəyəri, ABŞ dolları ('000) | 31,383 | 42,236 | -26% |
| Filialların sayı | 13 | 13 | 0% |
| İşçilərin sayı | 304 | 198 | 54% |
| Ortalama kredit müddəti, həftələr | 90 | 103 | -13% |
| Ortalama kredit məbləği, ABŞ dolları ('000) | 1,872 | 3,774 | -50% |
| Valyuta məzənnəsi | 0.8031 | 0.8010 | 0.26% |

# MÜŞAHİDƏ ŞURASI SƏDRİNİN MÜRACİƏTİ



2009-cu il CredAgro təşkilatının qısa inkişafı tarixində ən mühüm dövrlərdən biri olmuşdur. O vaxta qədər CredAgro sürətli inkişaf yolu keçmiş, yüksək keyfiyyətli kredit portfelinə malik olmuş və maliyyə nəticələrini təkmilləşdirmişdir. 2009-cu ildə qlobal maliyyə böhranı və daxili problemlərin təsiri ilə kreditin keyfiyyətini aşağı düşmüş, kredit portfeli azalmışdır. Beləliklə, 2009-cu il CredAgro - nun kreditləşmə fəaliyyətinin ilk dəfə zəifləməsi ilə əlamətdar olmuşdur. Habelə, onu da vurğulamaq vacibdir ki, CredAgro bu çətinliklərin və böhranın öhdəsindən gəlmiş və əməliyyatlarını gücləndirmişdir.
CredAgro kredit portfelini effektiv şəkildə qaydasına salmış və ardınca, kredit risklərin idarəedilməsi, daxili audit və daxili nəzarət də daxil olmaqla təşkilati sistemlərin təkmilləşdirilməsinə hədəflənmiş və bu yeni siyasət və prosedurların icrası üçün bir sıra yeni mütəxəssislər cəlb etmişdir. 2009 və 2010-cu illər ərzində CredAgro maliyyə böhranından irəli gələn problemlərin həlli üzərində işini davam etdirəcək. Eyni zamanda, biz daha güclü sistemlər quracaq və menecment komandasının CredAgro -nu yeni istiqamətlərə aparmaq səylərini dəstəkləyəcəyik.
Biz hazırda təkmilləşmə və təşkilatın daxili gücünün artırılması dövrünü yaşayırıq və ümid edirik ki, CredAgro Azərbaycanın maliyyə xidmətləri sektorunda güclü bir lider və rəqib mövqeyini qoruyub saxlaya biləcək. CredAgro əsasən rayon ərazilərində müştərilərə maliyyə xidmətləri göstərən mühüm bir təşkilatdır. CredAgro Müşahidə Şurası təşkilatın 2010-cu ildə yeni və peşəkar üzvlərdən ibarət işçi komandası ilə fəaliyyətini davam etdirəcəyinə, qapalı səhmdar cəmiyyəti kimi yenidən qeydiyyatdan keçəcəyinə və daha güclü və gələcəyə inamla baxan təşkilat olacağına ümid edir.
Biz CredAgro -nun işçi heyəti və rəhbərliyinin səylərini və peşəkarlığını, müştərilərimizin sadiqliyini və investorlarımızın dəstəyini yüksək qiymətləndiririk. Gələcək inkişaf yolumuzda da, sizin sadiqliyiniz, Azərbaycanda və bütün dünyada olan dostlarımızın dəstəyi CredAgro müştərilərinə öz biznes və maliyyə məqsədlərinə nail olmağa kömək edəcək xidmətlər göstərmək bacarığımızı artıracaq.

*Dr. Frederik V. Smit*
*Mühahidə Şurasının Sədri*

## Missiya

CredAgro Azərbaycanın kənd ərazilərində fəaliyyət göstərən sahibkar və müəssisələrə maliyyə xidmətləri göstərən müstəqil və dinamik bir təşkilatdır. Bizim məqsədimiz müştərilərimizin, həyat səviyyəsini, iqtisadi imkanlarını və bununla da onların yaşadığı icmaları inkişaf etdirməkdir.

## Gələcəyə Baxış

CredAgro-nun gələcəyə baxışı müştərilərin ehtiyacına cavab verən ədalətli qiymətlərlə və Azərbaycanın bütün ərazisində asanlıqla əldə edilə bilən maliyyə xidmətlərinin mövcud olduğu iqtisadi mühitdir.

## Əsas Dəyərlər

- Bizim məramımız müştərilərimizin ehtiyaclarına cavab verməkdir.
- Bizim ən əhəmiyyətli resursumuz əməkdaşlarımızdır. Biz yalnız səriştəli və işə sadiq insanları komandamıza cəlb etməyi, onların inkişafına və səmərəli fəaliyyət göstərməsinə çalışırıq.
- Biz, CredAgro-nun dayanıqlığını təmin etmək və göstərdiyi maliyyə xidmətlərini genişləndirmək məqsədi ilə mənfəət əldə edən bir təşkilat kimi idarı edirik.
- Biz CredAgro-nu şəffaf və peşakar şəkildə onun missiyası və baxışına uyğun tərzdə idarə edirik.

RƏHBƏRLİYİN MÜRACİƏTİ

# RƏHBƏRLİYİN MÜRACİƏTİ



2009-cu il CredAgro üçün hər baxımdan çətin bir il olmuşdur. Qlobal iqtisadi böhranın müştərilərimizə təsiri və daxili nəzarət sistemlərində olan zəifləmələr kredit portfelinin keyfiyyətinin düşməsi ilə nəticələnmişdir. Nəticə etibarilə, 3.65 mln. dollar dəyərində kredit silinməsi edilmişdir ki, bu da öz növbəsində portfelimizin 12.9%-ə qədər azalmasına gətirib çıxarmışdır. Bütün bu çətinliklərə baxmayaraq, CredAgro risklərin azaldılması məqsədilə tətbiq edilmiş azalma strategiyası nəticəsində ili 0.53 milyon ABŞ Dolları miqdarında xalis gəlir və 2008-ci il ilə müqayisədə 47% artmış aktiv müştəri sayı ilə başa vurdu. Biz fəaliyyətlərimizin coğrafi əhatə dairəsini genişləndirərək ən mühüm rayonlarda yeni sub-ofislər açdıq.

2009-cu ildə bir sıra mühüm məsələləri öyrənmiş olduq. Daxili nəzarət və daxili audit sistemimizi gücləndirməyə ehtiyac olduğunu anladıq. Nəticə olaraq biz, siyasətlər, plan və işçi heyəti ilə təmin olunmuş Daxili Nəzarət Departamentini yaratdıq. Bundan əlavə, Beynəlxalq Maliyyə Korporasiyasının köməyi ilə Kredit Risklərinin İdarəedilməsi departamenti yaratdıq. Siyasət və prosedurala rı bir daha yeniləməklə və sektorun ən qabaqcıl təcrübələrinin tətbiq olunmasını təmin etmək məqsədilə daxili auditorlar üçün karyera inkişafı planları yaratmaqla, daxili audit funksiyasını gücləndirmiş olduq. Biz yeni təşkilati struktur sxemi yaratdıq, işçi heyətinin vəzifə və öhdəliklərini aydınlaşdırdıq və bütün səviyyələrdə olan işçilər üçün müfəssəl təlim planı hazırladıq. Nəhayət, risklərlə bağlı məsələlərdə daha açıq müzakirəyə imkan verən idarəetmə yaratdıq və bu müzakirələrə əsasən tədbirlər gördük.

2009-cu ildə CredAgro planlarını yekunlaşdırdı və 2010-cu ildə qapalı səhmdar cəmiyyəti kimi qeydiyyatdan keçmək üçün hazırlıq işlərinə başladı. Bu qeydiyyat təşkilatın nizamnaməsinə uzun müddətdir ki, edilməsi vacib olan bir sıra dəyişiklikləri etməyə, rəhbərlik orqanlarının yenidən təşkili və təkmilləşdirilməsinə imkan verəcək. Artıq qeydiyyat tamamlandıqdan sonra şirkətə sərmayə qoyacaq əlavə səhmdarları da müəyyən etmişik.

Geriyə dönüb 2009-cu ilə nəzər saldıqda görürük ki, biz bir sıra çətinliklərin öhdəsindən gələ bilmişik. Biz inanırıq ki, CredAgro -nu gücləndirmək məqsədilə gördüyümüz tədbirlər daxili və xarici riskləri müəyyən edib onların qarşısını almaq qabiliyyətində olan güclü maliyyə təşkilatına çevrilməyimizlə nəticələnəcək.

Bizim güclü komandamız, bazar haqqında biliyimiz, müştərilərimiz və tərəfdaşlarımızla yaxşı münasibətlərimiz var ki, bütün bunların da rəqiblərimizi ötüb keçməyimizə kömək edəcəyinə əminik. Hazırda əsas işimiz müştərilərimizin hər gün artan ehtiyac və gözləntilərini qarşılamaq, təmin etmək və məmnun salmaqdır. 2010-cu il üçün ən mühüm işlərimizdən biri də, topladığımız böyük və müxtəlif yönümlü komandanı təşkilatın bir missiya və baxışı ilə ruhlandırmaq və CredAgro -nu müştəri və investorlarına öz maliyyə məqsədlərinə nail olmaqda kömək edən ən yaxşı biznes şirkətinə çevirməkdir.

Mən CredAgro-nun bütün müştərilərinə, direktor və işçilərinə, investor və tərəfdaşlarına davamlı dəstək və bizə etibarına görə öz minnətdarlığımı bildirirəm. 2010-cu ilin hamı üçün uğurlu keçməsini diləyir və hər zaman sizin rəy və təkliflərinizi alqışlayıram.

*Eldar Cəfərov*

*İdarə Heyətinin Sədri*

MÜŞAHİDƏ ŞURASI

Doktor Frederik Smit bütün dünya miqyasında maliyyə xidmətləri proqramlarının hazırlanması və icrası üzrə ixtisaslaşan ACDI/VOCA Maliyyə Xidmətləri Portfelinin Baş İcraçı Direktorudur. Doktor Smit kənd ərazilərinin kreditləşməsi, kiçik və orta sahibkarlığın, aqrobiznes proqramlarının inkişafı və icrası üzrə 25 illik təcrübəyə malikdir. Doktor Smit ixtisasca aqronomdur. Onun kənd təsərrüfatı və kənd ərazilərinin inkişafına yönəlmiş təcrübəsi uğurlu və rəqabət qabiliyyətli olması məqsədilə kənd təsərrüfatı müəssisələri üçün tələb olunan maliyyə və biznes menecment sistemlərinin qurulmasına fokuslaşmışdır.



**Dr. Frederik V. Smit**

Müşahidə Şurasının sədri

---

Xanım Nelson, maliyyə institutlarının inkişafı, kommersiya bankçılığı, mikro və kənd ərazilərində maliyyə institutlarının fəaliyyəti, təlim və texniki yardım proqramlarının icrası üzrə 30 illik təcrübəyə malikdir. O, kənd təsərrüfatı kreditləşməsi və investisiya layihələrinin qiymətləndirilməsi sahəsində peşəkardır. Xanım Nelson, ACDI/VOCA təşkilatında 1999-cu ildən etibarən çalışır. ACDI /VOCA-ya qoşulmazdan əvvəl o, 20 il Rumıniyanın Buxarest şəhərində Kənd Təsərrüfatı və Ərzaq Sənayesi Bankında çalışmış və orada kənd təsərrüfatı və ərzaq emalı sahəsinin istehlakçı və kommersiya müştərilərinə investisiya və maliyyələşmə xidmətlərinin təqdim edilməsi üzrə məsuliyyət daşımışdır. O, həmçinin Rumıniya Bankçılıq İnstitutunda təlim direktoru kimi də fəaliyyət göstərmişdir.



**Elena NELSON**

---

Xanım Gülnarə Həsənova menecment təlimi və məsləhət şirkəti olan Sidus Qrup MMC-nin təsisçisi və Qazaxıstan Assosiasiyasında Azərbaycan Biznes İnvestisiyasının vitse-prezidentidir. Xanım G. Həsənova bundan öncə Bakı Dövlət Universitetində dərs demiş və Azərbaycanın aparıcı içməli su təchizatçısı olan Aqua-Vita-Tac-da istehsal və marketinq məsələləri üzrə məsul menecer vəzifəsində çalışmışdır. O Azərbaycan Dillər Universitetinin xarici dil fakültəsinin bakalavr pilləsini və Birləşmiş Krallıqda Açıq Universitet Biznes Məktəbinin Biznes inzibatçılığı ixtisası üzrə magistratura pilləsini bitirmişdir.



**Gülnarə HƏSƏNOVA**

# İDARƏ HEYƏTİ



**Eldar CƏFƏROV**
*İdarə Heyətinin Sədri*

2002-ci ildən etibarən cənab Eldar Cəfərov CredAgro-nun İdarə Heyətinin sədridir. Bundan əvvəl o, CredAgro -nun kredit departamentinə rəhbərlik etmişdir. O, CredAgro -da iş fəaliyyətinə 2000-ci ildə kredit işçisi kimi başlamışdır. Cənab Cəfərov 1995-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirmiş və 2009-cu ildə ABA Bank işi üzrə Ali Stonier Məktəbinin diplomunu almışdır. CredAgro -dan əvvəl o, Azərbaycan Aqrar Sənaye Bankında kredit işçisi və baş kredit mütəxəssisi, Aİ-nin Tacis proqramı çərçivəsində aqrobiznesə dəstək layihəsində koordinator vəzifələrində işləmişdir.



**Anar ƏLİYEV**
*Sədrin Müavini*

Cənab Anar Əliyev CredAgro -ya 2009-cu ildə qoşulmuşdur. CredAgro -ya gəlməzdən əvvəl o, 11 il Azərbaycan Mərkəzi Bankında işləmişdir. O, TürkBankda iqtisadçı və ART Bankda kredit müfəttişi vəzifəsində çalışmışdır. O, Qazi Universitetinin İqtisadiyyat və Menecment ixtisası üzrə bakalavr, Bakı Biznes Universitetinin Beynəlxalq İqtisadi Əlaqələr ixtisası üzrə isə magistr dərəcəsini almışdır.



**Roksana ƏFƏNDİYEVA**
*Üzv*

Xanım Əfəndiyeva CredAgro-ya 2009-cu ildə maliyyə departamentinin rəhbəri kimi qoşulmuşdur. CredAgro-dan əvvəl o, Deloitte şirkətinin Moskva və Bakı ofislərində auditor və KPMG Azərbaycanın isə baş əməkdaşı olmuşdur. O, Baker Tilly şirkətinin Azərbaycan ofisində audit meneceri vəzifəsində çalışmış və orada maliyyə və sığorta şirkətlərinə, istehsalçılara audit xidmətlərinin göstərilməsinə görə məsul olmuşdur.



**Rüfət QULİYEV**
*Üzv*

Cənab Quliyev CredAgro-ya İT departamentinin rəhbəri kimi 2006-cı ildə qoşulmuşdur. CredAgro -dan əvvəl o, İntergeo-Tetis şirkətində müxtəlif İT vəzifələrində çalışmışdır. O, Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat və Kibernetika fakültəsini bitirmişdir. 2008-ci ildə o, Birləşmiş Krallıqda Hertfordşir Universitetinin İnformatika ixtisası üzrə magistr dərəcəsini almışdır. 2009-cu ildə o, Birləşmiş Krallıqda Lisester Universitetinin Menecment Məktəbinin Menecment İcraçısı diplomunu almışdır. O, BK və ABŞ-da müxtəlif İT cəmiyyətlərinin üzvüdür.

Qeyri Bank Kredit Təşkilatı CredAgro 2000-ci ildə USAİD-in Azərbaycanda Kənd Ərazilərinin Kreditləşməsi Layihəsi çərçivəsində Azərbaycanın regionlarında sahibkarları maliyyə xidmətləri ilə təmin etmək məqsədilə təsis edilmişdir. O, ABŞ-ın beynəlxalq qeyri-hökumət inkişaf təşkilatı və USAİD-in Azərbaycanda Kənd ərazilərinin Kreditləşməsi Layihəsinin İcraçısı olan ACDİ/VOCA tərəfindən yaradılmışdır. Bu layihə çərçivəsində CredAgro texniki yardım və kredit kapitalı əldə etmişdir. 2008-ci ildə USAİD CredAgro -ya sahibliyi təşkilatın hazırda tam sahibi olan ACDI/VOCA-ya təhvil vermişdir. CredAgro məhdud məsuliyyətli cəmiyyət kimi qeydiyyatdan keçmiş və kredit əməliyyatlarının aparılması üçün Azərbaycan Respublikasının Mərkəzi Bankından lisenziya almışdır.




Bu gün CredAgro öz kredit portfelinə görə FİNCA Azərbaycan (69 mln. ABŞ dolları) və AccessBank-dan (297 mln. ABŞ dolları) sonra 45 mln. ABŞ dolları dəyərində kredit portfeli ilə üçüncü mikromaliyyə təşkilatıdır. O, eləcə də aktiv müştərilərinə sayına (20,200 müştəri) görə FİNCA Azərbaycan (90,558) və AccessBankdan (100,489) sonra üçüncüdür. İllər ərzində CredAgro Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Beynəlxalq Maliyyə Korporasiyası (BMK), ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD), ACDI/VOCA və digər təşkilatlardan texniki yardım almışdır. O, beynəlxalq investorların etibarını qazanmış, Blueorchard, Developing World Markets (DWM), AYİB, Qlobal Mikromaliyyə Təşkilatı (GMF)), BMK, İncofin, KfW, MicroVest, Symbiotics, Oikokredit və Triple Jump kimi təşkilatlardan kredit maliyyəsi almışdı. 2009-cu ildə CredAgro, BMK və İncofin ilə ümumi dəyəri 7,7 milyon ABŞ dollarına bərabər olan yeni kredit müqavilələri imzalamışdır.

2006 və 2008-ci illərdə CredAgro beynəlxalq mikromaliyyə reytinq agentliyi olan Microfinanza tərəfindən müvafiq olaraq "BBB" və "A-" dərəcələri ilə qiymətləndirmişdir. 2008-ci ilin reytinqi CredAgro -nun öz maliyyə öhdəliklərini qarşılamaq üçün güclü imkanlara və uğurlu əməliyyatlara malik olmasını, mühüm daxili və xarici hadisələrə baxmayaraq belə, stabil olduğunu təsdiqlədi.

CredAgro mikromaliyyə sektorunun gücləndirilməsinə həsr olunan aparıcı biznes məlumatı təminatçısı Mikromaliyyə Məlumat Mübadiləsi (MİX) təşkilatından bir sıra maliyyə şəffaflığı və sosial şəffaflıq mükafatları almışdır. 2008-ci ildə CredAgro Azərbaycanın kənd təsərrüfatı sektorunun inkişafına mühüm töhfələrinə görə Konsaltinq və Biznes Jurnalının İqtisadiyyat və Biznes Milli Mükafatı olan "UGUR 2007" mükafatına layiq görülmüşdür.

CredAgro Azərbaycan Mikromaliyyə Assosiasiyasının və Azərbaycan Respublikası Sahibkarları Milli Konfederasiyasının üzvüdür.

**CƏDVƏL - CREDAGRO-NUN TARİXİ**

| İl | Cəmi aktivlər (ABŞ dolları) | Kredit portfeli | | Filialların sayı |
|---|---|---|---|---|
| | | Məbləğ (ABŞ dolları, mln) | Müştərilərin sayı | |
| 2001 | | | | 6 |
| 2002 | 2.5 | 2.1 | 591 | 9 |
| 2003 | 3.7 | 3.2 | 962 | 9 |
| 2004 | 4.1 | 3.8 | 1,048 | 9 |
| 2005 | 5.5 | 5.3 | 1,303 | 9 |
| 2006 | 10.0 | 9.8 | 2,853 | 9 |
| 2007 | 39.0 | 32.7 | 8,607 | 13 |
| 2008 | 59.4 | 51.2 | 13,773 | 13 |
| 2009 | 50.2 | 44.6 | 20,200 | 13 |

31 dekabr 2009-cu il üçün olan rəqəmlər. AccessBank haqqında məlumatlar bankın 2009-cu il üzrə illik Hesabatından, FINCA Azərbaycan haqqında məlumatlar isə Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən verilmişdir.



# RƏHBƏRLİYİN MÜZAKİRƏSİ, MALİYYƏ VƏZİYYƏTİ VƏ ƏMƏLİYYATLARIN NƏTİCƏLƏRİNİN TƏHLİLİ

***Fəaliyyətə ümumi baxış***

Qeyri bank Kredit Təşkilatı CredAgro ABŞ-ın beynəlxalq qeyri-hökumət inkişaf təşkilatı olan ACDI/VOCA –ya mənsub olan məhdud məsuliyyətli cəmiyyətdir. 31 dekabr 2009-cu il məlumatına əsasən CredAgro Azərbaycanın 28 rayonunda 13 filial və 9 nümayəndəliyə malik olmuş və onlar vasitəsilə kənd təsərrüfatı istehsalı emal, ticarət, istehsalat, əmtəə malları və avtomobil üçün kreditlər təklif etmişdir. CredAgro -nun baş ofisi Bakıda yerləşir. 2009-cu ilin sonunda CredAgro -nun 20200 aktiv müştərisi olmuşdur. 31 dekabr 2009-cu il məlumatına əsasən CredAgro 50.2 milyon ABŞ dolları həcmində aktivlərə, 44.6 milyon ABŞ dolları həcmində kredit portfelinə və 304 tam ştatlı işçiyə malik olmuşdur.

***2009-cu il üçün iqtisadi mühit***

2009-cu ildə Azərbaycanda siyasi vəziyyət sabit qalmışdır. Habelə, 2009-cu ilin birinci yarısında qlobal iqtisadi böhran və neftin qiymətinin ucuzlaşması Azərbaycanda iqtisadi mühitə müəyyən qədər təsirini göstərmişdi. Bəzi CredAgro müştəriləri, xüsusilə Rusiya ilə biznes əlaqəsi olan müştərilər Rusiyadakı iqtisadi böhranın təsirinə məruz qalmışdı. CredAgro həmin müştərilərin vəziyyətini bərpa edərək, ayağa qalxmasına yardım etmək məqsədilə onların kreditlərini dəyişmək istiqamətində çalışdı. Yenidən maliyyələşmə çətinliklərindən irəli gələn likvidlik təzyiqləri altında bir çox bankların kredit verilməsini azaltması ilə bank sektorunun inkişafı zəiflədi. Habelə, Mərkəzi Bank likvidliyin həddən artıq artmasının qarşısını almaq üçün müdaxilə etdi. 2009-cu ilin sonuna qədər cəmi bank aktivləri 14%-ə,cəmi kredit portfeli isə 20%-ə qədər artdı. Bank sektorunun inkişafına əlverişli zəmin yaratmaq üçün Azərbaycan Respublikasının Prezidenti 1 yanvar 2009-cu ildən etibarən kapitallaşdırılan gəliri üç il müddətinə vergidən azad etmək barədə sərəncam verdi. Bu addım, eləcə də, 2010-cu ildə bank sektorunda likvidliyi artırmalı idi. Mərkəzi Bank son illər ərzində bank sektorunda birləşməni təşviq etsə də, 2009-cu ildə heç bir bank birləşməsi halı olmadı və bankların sayı 46 olaraq qaldı.
Bank və mikromaliyyə sektorunda mövcud olan rəqabət Azərbaycanda fəaliyyət göstərən təxmini 96 bank olmayan maliyyə təşkilatı sayəsində artdı ki, bunların təxminən 18-i sırf mikromaliyyə ilə məşğul olur. 2009-cu ilin sonunda bu təşkilatların mikro kredit portfeli 443 milyon ABŞ dolları civarında olmuşdur.

***Fəaliyyət İcmalı***[2]

Müştərilərə verilmiş kreditlər və ümumi aktivlər: CredAgro -nun cəmi aktivləri 15.4% azalaraq 2008-ci il ilə nisbətdə 2009-cu ilin sonunda 59.4 milyon ABŞ dollarından, 50.2 milyon ABŞ dollarına enmişdir. 2009-cu ilin sonunda CredAgro müştərilərə verilmiş ümumi kredit həcmi 44.6 milyon ABŞ dolları olmuşdur ki, bu göstərici 2008-ci ildə olan 51.2 milyon ABŞ dolları kredit portfeli ilə müqayisədə 12.9% azalma deməkdir. İlin sonuna müştərilərin əlində olan ümumi kredit həcmi 2008-ci ilin sonuna olan 50.3 milyon ABŞ dollar ilə müqayisədə, 2009-cu ilin sonunda 14.2% enərək 43.2 milyon ABŞ dollarına bərabər olmuşdur. Buna səbəb verilmiş kreditlərin sayının artması və bunun əksinə olaraq orta kredit məbləğinin kəskin azalması (2008-ci ildə orta kredit həcmi 3.774 ABŞ dolları olduğu halda, 2009-cu ildə bu rəqəm 1.872 ABŞ dolları olmuşdur) və CredAgro -nun daxili və qlobal iqtisadi böhrana qarşı tətbiq etdiyi risklərin idarəedilməsi strategiyasının təcəssümü olmuşdur.
Fəaliyyətin əhatə dairəsi: 2009-cu ilin sonunda aktiv kreditlərin sayı 2008-ci ilin sonu ilə müqayisədə 47%-ə qədər artmışdır ki, bu da öz növbəsində CredAgro məhsullarının bazarı yaxşı əhatə etməsi demək idi. Hesabat ilinin sonunda ilk dəfə kredit götürənlərin sayı 2008-ci il ilə müqayisədə 79%-dən 77%-ə enmişdir ki, bu da bazarın genişlənməsi və müştəri cəlb etmə faizinin artma göstəricisidir. CredAgro 2009-cu ili kreditlərin sayı və məbləği baxımından portfelində əsas dominant məhsulların Ekspres[2] və İstehlak Kreditləri olması (müvafiq olaraq sayı 35% və 57%, məbləği isə hər biri üzrə 29%) yekunlaşdırdı. Ticarət kreditləri ümumi portfeldə məbləğ baxımından 28%, müştəri sayı baxımından isə 5%-ni təşkil etmişdir. Portfelin qalan hissəsini isə kənd təsərrüfatı, istehsal, lizinq və digər sahələrə verilən kreditlər təşkil etmişdir. Qeyri-istehlak kreditləri ümumi portfelin 71%-ni təşkil edirdi. 2009-cu ildə kiçik və qısa kreditlər üzrə strategiya dəyişikliyinə görə 2008-ci il ilə müqayisədə Ekspress kreditləri məbləğinə görə 80% və müştərilərin sayına görə isə 136% artmışdır. Bütün digər seqmentlərin azaldığı bir vaxtda, istehlak kreditləri məbləğinə görə 2%, müştərilərin sayına görə isə 29% qalxmışdır. Müştəri sayına görə ən böyük filial Tovuz (3970 müştəri), kredit portfelinə görə isə Abşeron (6.0 milyon AZN) filialları olmuşdur. Müştərilərinin sayına və kredit portfelinə görə ən kiçik filiallar isə müvafiq olaraq Mingəçevir (485 müştəri) və Şəki (817,011 AZN) rayonlarında olan filiallar olmuşdur.

Müzakirə edilən fəaliyyət göstəriciləri və faizlər AZN-dən ABŞ dollarına valyuta mübadiləsi nisbətinin 2009-cu il üçün 0.8031, 2008-ci il üçün isə 0.8010 ilə hesablanmışdır.
[2]Ekspress kreditlər kiçik bizneslər üçündür. Bu kreditlərin 18 aya və 5000 AZN-ə qədər verilməsi mümkündür.



**31 Dekabr, 2009-cu il üçün məhsullar üzrə Aktiv Kredit Portfelinin diversifikasiyası**




**31 Dekabr, 2009-cu il üçün kreditin məbləğinə görə Aktiv Kredit Portfelinin diversifikasiyası**




**31 Dekabr, 2009-cu il üçün Filial üzrə Aktiv Kredit Portfelinin diversifikasiyası**




***Kreditin verilməsi:*** 2009-cu ildə CredAgro 2008-ci ildə verilən 11.192 kreditlə müqayisədə 50% artımla 2009-cu ildə 16,761 kredit vermişdir. Lakin ümumilikdə verilmiş kreditlərin məbləği 2008-ci il ilə müqayisədə 2009-cu ildə 26% azalmaqla, 42.2 milyon dollardan 31.4 milyon dollara enmişdir. Bu, artan risk və rəqabətin öhdəsindən gəlmək üçün kreditləşmə siyasətinin daha qısa müddətli və kiçik həcmli kreditlərin verilməsi istiqamətinə doğru dəyişməsi nəticəsində kredit verilməsinin artdığını göstərir. Yeni strategiya nəticəsində 2009-cu ilin 31 dekabrına olan portfelin ən böyük hissəsini (müştərilərin sayı baxımından 59%, kredit məbləği baxımından isə 36%) 1001 AZN-dən 3000 AZN-ə qədər olan kreditlər təşkil etmişdir. 5000 AZN-dən aşağı olan kreditlər məbləğ baxımından ümumi portfelin 55%-i olmuşdur. 2008-ci ildə isə 5000 AZN-dən aşağı olan kreditlər məbləğə görə ümumi portfelin 36%-ni təşkil etmişdir. Bundan əlavə, 31 dekabr 2009-cu il üçün 12 aydan az müddətli kreditlər ümumi portfeldə məbləğə görə 53%, kredit sayına görə isə 83% olmuşdur.

***Portfelin keyfiyyəti:*** 2008-ci ilin sonu ilə müqayisədə 30 gündən çox riskdə olan portfel (30 gündən çox olan gecikmələr müşahidə olunan cəmi kredit həcminin ümumi portfeldə olan faiz göstəricisi) üç dəfədən çox artaraq 5.1%-ə çatmışdır ki, bu da, 180 gündən çox və ümumi dəyəri 3.65 milyon ABŞ dolları dəyərində olan gecikən kreditlərin portfeldən silinməsindən və məhkəmə işlərinin nəticələrindən sonra olmuşdur. Silinmiş kreditləri də nəzərə alsaq, o zaman 30 gündən çox riskdə olan portfel 13.2%-dən çox olardı ki, bu da regiondakı sektor standartları və ya normalardan xeyli yüksək deməkdir. Portfelin keyfiyyətinin aşağı düşməsi daxili nəzarətdə olan çatışmazlıqlar və müştərilərin sayına təsir edən ümumi iqtisadi böhran səbəbindən baş vermişdir. CredAgro -nun idarəetmə/menecment komandası və Müşahidə Şurası problemin mövcudluğunu təsdiqləmiş və daxili nəzarəti gücləndirmək və portfelin keyfiyyətini artırmaq üçün bir sıra təcili tədbirlərin görülməsini müəyyənləşdirmişdir. Nəticə etibarilə, dekabr ayında 30 gündən çox riskdə olan portfel 2009-cu ilin ilk rüblərinə nisbətdə nəzərə çarpacaq dərəcədə aşağı olmuşdur.

***Faiz gəlirləri:*** CredAgro - nun kredit portfelindən gələn faiz gəliri 2008-ci ildən etibarən 17.5% artmışdır. Bu artıma səbəb əsasən kredit məhsulları növlərində edilmiş dəyişikliyə görə olmuşdur.

***Qeyri-faiz gəlirləri:*** 2008-ci ildə maraq faizi gəlirləri 17.5% artdığı halda, qeyri-faiz məsrəfləri 95%-ə qədər artmışdır. Xarici valyuta əməliyyatlarından gələn gəlirlər istisna olmaqla, bütün kateqoriyalar əhəmiyyətli artım olmuşdur. Əmək haqları və müavinətlərdə



77% artım olmuşdur ki, bu da əsasən yeni sub-ofislərin açılması nəticəsində 106 yeni işçinin qəbulu, əlavə kredit işçilərinin işə qəbulu və məlumat daxil edilməsinə əsaslanır. Bundan əlavə, 2009-cu ildə CredAgro işçi heyətinin əmək haqlarını ümumi bazar səviyyəsinə çatdırmaq üçün əhəmiyyətli dərəcədə artırmışdır. Yeni sub-ofislərin açılması, icarə qiymətlərinin qalxması və baş ofisin genişlənməsi nəticəsində ofis kirayəsi xərcləri də artmışdır. İP telefoniyanın tətbiq olunması kommunikasiya xərclərinin də artması ilə nəticələnmişdir. CredAgro -nun vergi auditinin keçirilməsinə hazırlıq, siyasət və prosedurların yaradılması işlərinə görə məsləhətçilərin xidmətlərindən istifadə etməsi peşəkar xidmət xərclərinin də artmasına səbəb olmuşdur. Portfelin intensiv monitorinqinin təşkili nəticəsində ezamiyyə xərcləri də qalxmışdır. Kredit portfelinin artımı və təkmilləşdirilmiş portfel keyfiyyəti əmək haqları və sosial müavinətlərin yüksək artımını kompensasiya etdikdə 2010-cu ildə gəlir gözlənilən səviyyəyə qalxacaq.

***Faiz gəlirləri yaradan aktivlərin zəifləməsi:*** 2008-ci il ilə müqayisədə, faiz gəlirləri yaradan aktivlərin qorunması üçün ayrılan ehtiyat yığımlar səkkiz dəfədən çox artmışdır. Bu kəskin artım kredit portfelinin keyfiyyətinin zəifləməsi, toplanmasına ümid olmayan və məhkəmə işləri nəticəsində qaytarılması uğursuz olan kreditlərin silinməsinə olan ehtiyaca uyğun edilmişdir.

***Əməliyyat səmərəliliyi faizi:*** Kapital xərclərini də daxil olmaqla, 22% olan Əməliyyat səmərəliliyi əmsalı çox yaxşıdır. Regionun ümumi normaları ilə nisbətdə CredAgro -nun əməliyyat səmərəliliyi faizi orta göstəriciyə yaxındır.

Maliyyə vəziyyəti: 3.71 göstəricili aktivləri ilə CredAgro -nun maliyyə vəziyyəti nisbəti 2008-ci ilin sonu (4.25) ilə müqayisədə aşağı olsa da, ümumilikdə əla olmuşdur. Hazırda bu, CredAgro -nun öz portfelinin artırması məqsədilə əlavə xarici borcların cəlb edilməsi üçün yaxşı potensialdır.

***Əməliyyat və maliyyə dayanıqlığı:*** Bütün cari məsələlər və iqtisadi böhran şəraitində CredAgro -nun əməliyyat və maliyyə dayanıqlığı müvafiq olaraq 100.8% və 100.4% olmuşdur. Bu, 2008-ci ildə müvafiq olaraq 157.1% və 129.1% olan göstərici ilə nisbətdə enmənin olduğunu göstərir.

***Mənfəət:*** CredAgro ili 527,675 ABŞ dolları dəyərində olan kiçik xalis gəlirlə bitirməyə müvəffəq olmuşdur. 2009-cu il ərzində yüksək kredit itkisi xərcləri və çox sayda kredit silinmələri olmasını nəzərə alaraq, bunu yaxşı göstərici hesab etmək olar. Qeyd edilməlidir ki, 2009-cu ildən əvvəl CredAgro -nun portfel keyfiyyəti mükəmməl olmuş, lakin 2009-cu ilin əvvəlində CredAgro yalnız 80,400 AZN məbləğində krediti silinməsi həyata keçirmişdir.

***Ortalama aktiv və kapitaldan gələn gəlir:*** Ötən illərlə müqayisədə aktivlərdən və kapitaldan gələn gəlir aşağı, müvafiq olaraq 0.2% və 1.1% olmuşdur. Rəhbərlik 2010-cu ildə CredAgro -nun fəaliyyətini yaxşılaşdırması üçün bir sıra tədbirlər görmüşdür.

***Gələcəyə Baxış***

2005-ci ildən etibarən, CredAgro maliyyə xidmətlərinə artan tələbat, rəqabətin zəif olması və kapitalın mövcudluğu sayəsində yüksək sürətli artım və inkişaf dövrü yaşamışdır. Hazırda çevrilib həmin illərə baxanda, belə inkişaf üçün zəruri və təkmil sistemlərə malik olmadığımız bir vaxtda irəlilədiyimizi müşahidə edirik. CredAgro 2010-cu ildə öz inkişaf strategiyasını bir daha nəzərdən keçirəcək və gələcək inkişafını dəstəkləmək üçün zəruri sistemlərin: təşkilati struktur, müəssisə mədəniyyəti və insan resursları sistemlərinin qurulması üzərində çalışacaq.

2010-cu ildə qapalı səhmdar cəmiyyətinə keçidlə bağlı korporativ idarəetmə sistemlərində təkmilləşmələr aparmağa davam edəcəyik. Bu istiqamətdə nizamnamə, təlimatlar, siyasət və proseduralara yenidən baxılaraq dəyişikliklər edilməsi də nəzərdə tutulur. Biz BMK Korporativ İdarəetmə Qiymətləndirilməsi və İnkişaf Planında, ACDI/VOCA-nın Təşkilati Qiymətləndirmə alətində göstərilmiş tövsiyyələrin icrasını davam etdirəcəyik.

2010-cu ildə biz tədbirli və məsuliyyətli artıma nail olmaq vasitəsilə, portfelimizin keyfiyyətini təkmilləşdirməyə fokuslaşacağıq. Biz səmərəliliyi artırmaq, risklərə nəzarəti daha yaxşı təşkil etmək, müştəri və işçi heyəti məmnuniyyətinə nail olmaq məqsədilə iş prosesimizi təkmilləşdirəcəyik.

Yenidəntəşkilatlanma və heyət dəyişiklikləri nəticəsində hazırda müxtəlif təcrübə və biliyə malik olan bir sıra yeni komanda üzvlərimiz var. 2010-cu ildə biz bu komandanı CredAgro -nu Azərbaycanda aparıcı maliyyə xidmətləri təminatçısı kimi tam potensialını nümayiş etdirmək kimi vahid bir missiya və baxış vasitəsilə həvəsləndirməliyik.

---

[2]Burada ortalama kredit portfeli üzərində qeyri-maraq faizi xərcləri hesablanmışdır. Qeyri-maraq faizi xərclərinə əmək haqları və sosial müavinətlər, inzibati və əməliyyat xərcləri, amortizasiya, komisyon haqq xərcləri, xarici valyuta köçürmələrindən yaranan gəlirlər daxildir. Qeyri-maraq faizi xərclərinə maraq faizi gəliri gətirən aktivlər və maraq faizi xərcləri üçün ehtiyatlar daxil deyil.



### Risklərin İdarəedilməsi

2010-cu ildə CredAgro BMK tərəfindən CredAgro Korporativ İdarəetmənin Qiymətləndirilməsi və İnkişaf Planında göstərdiyi tövsiyyələri əsasında risklərin idarəedilməsi strukturunun formalaşdırılmasını davam etdirəcək. CredAgro ümumi təşkilat səviyyəsində risklərin müəyyənləşdirilməsi, prioritetləşdirilməsi, azaldılması, haqqında hesabatın verilməsi və monitorinqi üçün mövcud olan yanaşmasını təkmilləşdirəcək.

***Kredit Riski*.** Kredit riski CredAgro üçün vacib bir riskdir. CredAgro -da Müşahidə Şurasının rəhbərliyi altında İdarə Heyəti üzvləri, yerli və mərkəzi kredit komitələrinin iştirakı də iştirakçılığı ilə təşkil olunan kredit risklərinin idarəedilməsi sistemi vardır. CredAgro Kredit Riskinin İdarəedilməsi Müşahidə və Direktorlar Şurasının prosesə cəlb olunması qaydalarını təsvir edən siyasət və prosedurlar ilə təşkil olunur. Son illərdə CredAgro kredit riskini azaltmaq üçün bir sıra tədbirlər görmüşdür. Baş ofisin kredit departamenti genişləndirilmiş və bu departamentə filiallardakı kredit işçilərinin işinə nəzarət etmək, filial kredit komitələrinin işini müşahidə etmək, filialların portfel hesabatlarını təhlil etmək və filialların kredit işçilərinə dəstək göstərmək üçün məsul olan kredit təhlilçiləri qəbul edilmişdir. Təşkilatın Kredit Departamenti müxtəlif departamentlər arasında müvafiq şöbənin işinə yardımçı olan səmərəli və şəffaf idarəetmə üzrə məlumat sistemini yaradılmasını təmin edir. Hazırda hər bir filialda filialların kredit işçiləri tərəfindən verilən kreditlərə nəzarət, idarəetmə, təlim və müşahidəyə üçün məsul olan ən azı bir kredit meneceri işləyir. 2009-cu ildə CredAgro Azərbaycan Mərkəzi Bankının Korporativ İdarəetmə Standartları və Risklərin İdarəedilməsi Standartlarına uyğun olaraq, kredit risklərinin uğurlu idarəedilməsi məqsədilə Kredit Risklərinin İdarəedilməsi Departamenti yaradılmışdır. Bu departamentin əsas vəzifəsi CredAgro biznes planında qoyulmuş strateji məqsədlərə uyğun olaraq CredAgro -nun üzləşdiyi riskləri təyin etmək, kəmiyyətini müəyyən etmək, azaltmaq və ümumi risklərin qarşısını almaqdan ibarətdir.

***Likvidlik və Maliyyələşmə Riski*.** CredAgro üçün başlıca maliyyə mənbələri beynəlxalq maliyyə təşkilatları, banklar və qeyri bank kredit təşkilatlarından aldığı kreditlərdir. CredAgro maliyyələşmə məsələsində hökumət qurumlarından maliyyə almadığı və depozitlərə çıxışı olmadığı üçün bu təşkilatlardan asılıdır. CredAgro –nun Aktiv və Passivlərin İdarəedilməsi Komitəsi (ALCO) mümkün likvidlik və maliyyə risklərini idarə edir.

***Əməliyyat Riskləri*.** Bu, daxili proseslər, sistemlər və ya işçilərin işindəki çatışmazlıqlar, eləcə də xarici hadisələrin mənfi təsirindən yaranan riskdir. Risklərin azaldılması onların müəyyənləşdirilməsi, qiymətləndirilməsi və potensial risk kimi qeydə alınması, onların idarə olunması, monitorinqi və hesabatlarının verilməsi üzrə siyasətlərin (fəaliyyət planlarının) yaradılmasını əhatə edir. 2008-ci ildə CredAgro kredit vermə təcrübələrinin nəzarət olunmasında zəifləmə ilə üzləşdir və bu vəziyyəti aradan qaldırmaq üçün strategiya və prosedurlara dəyişiklik etdi. Bu olanlara cavab reaksiyası kimi CredAgro 2008-ci ildə baş vermiş daxili yoxlamalardakı pozuntuları və zəiflikləri aradan qaldırmaq məqsədilə, 2010-cu il üçün İdarəetmənin İnkişaf Planı yaratdı və bu plan Müşahidə Şurası tərəfindən təsdiqləndi. CredAgro rəhbərliyi müntəzəm olaraq bu planın icrası barədə Müşahidə Şurasına hesabat verir.

***Strateji Risk*.** Bu, xidmətlərin əsas məzmununun, inkişaf planı və ümumi biznes yanaşmasının bazar və sektorun dəyişən tələbat və cərəyanlarına cavab verə bilməyən, onları qarşılaya bilməyən strategiya riskidir. Bu riski aradan qaldırmaq üçün CredAgro faktiki nəticələr ilə münasibətdə planın gedişatını qiymətləndirmək üçün mövcud olan səciyyəvi ölçmə meyarları əsasında üçillik strateji plan hazırlamışdır. Bu strateji plan CredAgro rəhbərliyi tərəfindən işlənib hazırlanmış və Müşahidə Şurası tərəfindən təsdiq edilmişdir. CredAgro -nun strateji planına mənfəət/gəlir məqsədləri, korporativ idarəetmənin gücləndirilməsi və digər əməliyyat məqsədləri daxildir. Plan mütəmadi nəzərdən keçirilir və yenilənir. O, 2010-cu ildə CredAgro -nun qapalı səhmdar cəmiyyət kimi qeydiyyata alınmasından sonra bir daha yenilənəcək.

***Nüfuz Riski*.** Bu, müəssisənin imicinin müştərilərin etibarının itirilməsi, bazadakı payı, gəliri, mənfəətliliyi və şirkətin dəyəri üzərində mənfi təsir nəticəsində aşağı düşməsi riskidir. Bu gün bir çox müəssisələr bunu ən böyük potensial risklərdən hesab edirlər. Təşkilatın regional və baş ofislərinin səlahiyyətlərindən sui-istifadə etməsi nəticəsində CredAgro -nun daxili proseslər və sistemlərinin pozulması halları bu riskə nümunədir. CredAgro - bu riski azaltmaq üçün korporativ idarəetməni təkmilləşdirilməsi üzrə ciddi məqsədə malikdir. CredAgro həmçinin iqtisadi böhranı və CredAgro -da daxili nəzarətinin uğursuzluğu nəticəsində mənfi təsirə məruz qalmış müştərilər ilə, onların böhrandan çıxması təşkilati reputasiyasını gücləndirmək istiqamətdə çalışır. CredAgro bütün direktorları, idarəetmə üzvləri və işçiləri tərəfindən etik davranışlar üzrə yüksək standartlar nümayiş etdirir. Təşkilat rəhbərliyi və Müşahidə Şurası bu tədbirlərin icrasını və bütün digər riskləri nəzarətdə saxlamağı CredAgro reputasiyasının qorunmasında ən yaxşı yol hesab edir.



# TƏŞKİLAT VƏ İŞÇİ HEYƏTİ

CredAgro-da ali qərarverici onun təsisçisidir. Təsisçi ən azı rübdə bir dəfə görüşərək CredAgro fəaliyyətini nəzərdən keçirən üç üzvdən ibarət Müşahidə Şurasını təyin etmişdir. Müşahidə Şurasına sədr Dr. Frederik Smit, xanım Gülnarə Həsənova və cənab Vilyam M. Polidoronun yerinə keçən xanım Yelena Nelson daxildir. İllər boyu Müşahidə Şurasının üzvləri dəyişsə də, Dr. Smit CredAgro fəaliyyətini başlayan ilk vaxtdan qoşulmuşdur, xanım G.Həsənova isə 2003-cü ildən Şuranın üzvdür. Beləliklə, CredAgro təşkilat və Azərbaycan haqqında geniş məlumatlı işçilərdən faydalanır. Təşkilatın gündəlik işi CredAgro -nun idarəedilməsi üçün məsul olan İdarə Heyətinin sədri Direktor Eldar Cəfərov tərəfindən təşkil edilir. Direktor müavini, daxili nəzarətçi və köməkçi birbaşa direktora hesabat verir. . Müxtəlif departamentlərin - Maliyyə, Kredit Risklərinin idarəedilməsi, Kredit, İnzibati, İT departamentlərin rəhbərləri və filiallar direktor müavininə hesabat verir. CredAgro -da Kredit Komitələri, Aktiv və Passivlərin İdarəedilməsi Komitələri, İnformasiya Texnologiyaları Komitəsi, Risklərin İdarəedilməsi Komitəsi, Təchizat komitəsi və Əsas vəsaitlər üzrə Komitəsi mövcuddur. İdarə heyəti üzvləri və digər rəhbər işçilərdən ibarət bu komitələrə direktor və ya direktor müavini rəhbərlik edir. Bu komitələrin Müşahidə Şurası tərəfindən təsdiqlənən əsasnaməsi vardır. Əsasnamənin şərtlərinə görə komitələr onlara nəzarət edən və üzvlərini təyin edən  Müşahidə Şurasını qarşısında hesabat verirlər. Bu struktur Azərbaycanın kommersiya bankları haqqında qanunvericiliyin tələb etdiyi idarə heyəti komitələri strukturuna uyğundur.

Mərkəzi Kredit Komitəsi CredAgro Kredit Siyasətinin icrasına görə, təşkilatın filiallarında kredit təsdiqi məhdudiyyətlərinin qoyulmasına, kredit risklərinin müəyyən edilməsi, səlahiyyətləri çərçivəsində əməliyyatlar üzrə qərar verməyə görə məsuliyyət daşıyırlar.

Aktiv və Passivlərin İdarəedilməsi Komitəsi mənfəətlilik və kapitalın artırılması, müştəri və icma ehtiyaclarına xidmət göstərilməsi, təşkilatı maraq faizi CredAgro baş verən dəyişiklik risklərindən irəli gələn istənilən təhlükəli maliyyə nəticələrindən qorumaq məqsədilə CredAgro -nun aktiv və passivlərinin idarəedilməsinə görə məsuldur. Bu məqsədlər CredAgro -nun Aktiv və Passivlərin İdarəedilməsi Siyasəti, Açıq Valyuta Riski və Xarici Valyuta Risklərinin İdarəolunması Təlimatları və digər müvafiq siyasət və təlimatlar çərçivəsində həyata keçirilir

Risklərin İdarəedilməsi Komitəsi CredAgro fəaliyyəti üçün ortaya çıxan risklərin müəyyən edilməsi və qiymətləndirilməsi üzrə müvafiq idarəetməyə nəzarətin təmin olunmasına görə məsuliyyət daşıyır.

İnformasiya Texnologiyaları Komitəsi informasiya texnologiyaları məsələlərinə nəzarəti təmin edir və CredAgro -nun informasiya texnologiyaları üzrə strateji istiqamətinin müəyyən edilməsinə görə məsuldur.

Təchizat Komitəsi başlıca olaraq CredAgro -nun təchizat prosedurlarının müvafiq qaydada icrasının təmin edilməsinə görə cavabdehdir.

Əsas Vəsaitlər Komitəsi siyasət və prosedurlara uyğun olaraq əsas vəsaitlərin təchizatı, dəyərləndirilməsi, satışı, bərpa və likvidasiyasına nəzarəti təmin edir.

CredAgro Daxili Audit Xidməti (DAX) birbaşa Müşahidə Şurasının idarəetməsi altında təşkilatın əməliyyatlarını qiymətləndirmək və təkmilləşdirmək üçün yaradılmış müstəqil, obyektiv təminat və məsləhət funksiyası orqanıdır. O, CredAgro -ya risklərin idarə edilməsi, daxili nəzarət və idarəetmə proseslərinin səmərəliliyini qiymətləndirmə və təkmilləşdirmək üçün sistematik və intizamlı yanaşma vasitəsilə təşkilati məqsədlərə nail olmağa kömək edir. Obyektivlik DAX-a heç bir keyfiyyət güzəştlərinin edilməməsinə imkan verən qərəzsiz mənəvi münasibətdir. CredAgro DAX-i 2009-cu ildə əhəmiyyətli dərəcədə dəyişilmişdir. Bu xidmətə peşəkarlar cəlb edilmiş və2010-cu il üçün müvafiq audit planı hazırlanmışdır. Hazırda xidmətdə bir Baş Daxili Auditor (ABŞ-ın CPA dərəcəsini almaq prosesində olan keçmiş bank nəzarətçisi) və iki Auditordan (biri Böyük Dördlükdən ACCA dərəcəsini almaq üzrədir və təcrübəli kredit mütəxəssisidir) ibarət üç auditor çalışır. DAX risklərə əsaslanan audit planının işlənib hazırlanası və bu strukturun nəticə etibarilə güclənməsinə gətirib çıxaran auditorların təlimini tamamlamaq üçün BMK-nın Azərbaycanda Korporativ İdarəetmə Layihəsi ilə yaxından əməkdaşlıq edir. DAX audit hesabatı və fəaliyyət planlarını  sektorun tanınmış standartlarına uyğun şəkildə dəyişmiş, struktur orqanlar tərəfindən audit tövsiyyələrinin icrasını təmin etmək məqsədilə Audit Reyestri yaratmış və uzun müddət perspektivində etibarlı auditin təşkili üçün CredAgro-nun struktur



qurumları ilə peşəkar münasibətlər qurmuşdur. 2009-cu ildə CredAgro-nun Müşahidə Şurası DAX haqqında Qanun və “CredAgro-da daxili auditin təşkili və icrası haqqında Təlimatlar” a edilmiş düzəlişləri təsdiqləmişdir ki, bu da öz növbəsində, bu xidmətin uzunmüddətli inkişaf üçün güclü bünövrə yaradacaq və daxili nəzarət pozuntularının təkrarlanmasının qarşısını almağa imkan verəcək.

2009-cu ildə genişmiqyaslı yenidəntəşkilatlanma cəhdlərinin nəticəsi olaraq, CredAgro işçilərinin sayı 54% artaraq 198-dən 304-ə qalxmışdır. Yeni heyət şirkətə çoxsahəli və müxtəlif təcrübə gətirdi və eyni zamanda, bütün işçiləri birləşdirən korporativ mədəniyyətin yaradılmasına ehtiyac olduğunu vurğuladı. CredAgro daima təşkilat strategiyasının icrasını təmin etmək üçün işçilərinin peşəkar inkişafına xüsusi diqqət yetirmişdir. 2009-cu ildə CredAgro müfəssəl işçi təlimi proqramı işləyib hazırladı. Bu məqsədlə CredAgro kredit, marketinq, risklərin idarəedilməsi və korporativ idarəetmə sahələrində texniki yardım göstərən və təlimlər verən Azərbaycan Mikromaliyyə Assosiasiyası və Azərbaycan Bank Tədris Mərkəzi ilə əməkdaşlıq etmişdir. Bundan əlavə, CredAgro-da müxtəlif departament rəhbərləri və mütəxəssisləri tərəfindən aparılan daxili təlim proqramı da mövcud olmuşdur.

## CredAgro təşkilatı strukturu



İNFORMASİYA TEXNOLOGİYALARI

# İNFORMASİYA TEXNOLOGİYALARI

CredAgro-nun İnformasiya Texnologiyaları Departamenti baş ofisdə yerləşir və həm baş, həm də filial ofislərinə texniki xidmətlər, dəstək və təlimi göstərir. İT-nin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır: a) Korporativ İdarəetmə İnformasiya Sisteminə (İİS) nəzarət; b) bütün digər avtomatlaşdırılmış iş fəaliyyəti və xidmətlərinin idarə və nəzarət edilməsi; c) baş ofis və filiallar səviyyəsində texniki dəstək; d) İT təhlükəsizlik nəzarəti.

CredAgro-nun inkişaf siyasətlərini həyata keçirmək, onun əməliyyat xərclərini azaltmaq və iş prosesinin effektivliyini təkmilləşdirmək məqsədilə İT Departamenti İT Strategiyası işləyib hazırlamışdır. Bu strategiyaya əsasən, 2009-cu ildə departament aşağıdakı işləri tamamlamışdır: İİS sisteminin proqram təminatının, VMware virtual server infrastrukturunun yenilənməsi, zəruri hesabatı vaxtında əldə etmək üçün mövcud infrastrukturu optimallaşdırılması, İİS məlumat bazası və digər həlledici server yaddaş ehtiyatı üçün Symantec əsaslı proqram həlləri və İBM əsaslı avdanlığın quraşdırılması, baş ofislə filiallar arasında surətli qoşulma növünü (VPN) yeniləşdirilməsi, Cisco VoİP korporativ telefon sisteminin yaradılması və s. İT departamenti ilə birgə CredAgro rəhbərliyi periodik əsasda İT infrastrukturunun müvafiq adekvatlığını nəzərdən keçirir. Belə müşahidələr əsasında, İdarə Heyəti 2010-cu il üçün İT departamentinə edilməsi vacib olun sərmayəni təsdiqləmişdir. Belə periodik yoxlamaların birbaşa nəticəsi 2010-cu ildə qəbul edilən qərar oldu: əməliyyat xərclərini azaltmaq üçün baş ofis və filiallarda Nazik Müştəri Texnologiyasının (Thin Client Technology) tətbiq olunması; şirkətin bütün şəbəkə infrastrukturunun CİSCO-əsaslı proqrama dəyişilməsi; təşkilat daxilində Sənəd Axını Sisteminin icrası; kredit sənədlərinin arxivləşdirilməsi üçün proqram həllinin icrası; ERP Proqramının Yüklənməsi; CİSCO təhlükəsizlik həllərinin tətbiqi və s. 2010-cu ildə CredAgro həmçinin, İT İdarəetməsinin təkmilləşdirilməsi və İTİL (İnformasiya Texnologiyaları üzrə İnfrastruktur Kitabxanası) üzrə qabaqcıl təcrübələrinin əsas cəhətlərinin icrası prosesinin yekunlaşdırılmasını və CoBİT qabaqcıl təcrübələrinin icrasına başlanılmasını planlaşdırır.

## Ən yaxşı filial - Cəlilabad



2000-ci ildə açılan Cəlilabad filialı CredAgro-nun ilk filialıdır. 2009-cu il fəaliyyətinə görə, də o, CredAgro tərəfindən ilin ən yaxşı filialı seçilmişdir. Hazırda filial Cəlilabad və Biləsuvar rayonlarında fəaliyyət göstərir.

2009-cu ildə filial 7,610,897 ABŞ dolları həcmində kredit vermiş və ilin sonunda portfeli 7,014,078 ABŞ dollarına çatmışdır ki, bu da 2008-ci ilin sonu ilə müqayisədə 114 % artım deməkdir. 2009-cu ildə filial 31.8% portfel gəliri ilə 2,042,728 ABŞ dolları həcmində faiz gəliri əldə etmişdir. Güclü artıma baxmayaraq, filialın portfel keyfiyyəti əla olmuşdur. Belə ki, burada 30 gündən artıq riskdə olan portfel göstəricisi 1,76% (il ərzində silinmiş kreditləri əlavə etdikdə 1,92%) təşkil etmişdir.

Filial yüksək peşəkar işçi heyəti ilə bir komanda şəklində çalışır. Filialın kredit heyəti kredit ərizələrini diqqətlə qiymətləndirir. Bütün bu amillər filialın uğurlarının əsas bünövrəsini təşkil edir.

## Uğur Hekayələri



Əsgər Quliyev, Sumqayıt

2000-ci ilə qədər Əsgər Quliyev mühasib kimi işləmişdir. İş onu peşəkar cəhətdən təmin etmirdi və o, ferma işlətmək qərarına gəlir. Əsgər Zəngilanın dağlıq kəndində böyümüş və fermerlik onun üçün yeni bir şey deyildi. 2002-ci ildə o, 15 inək, 12 düyə, 4 donuz və 10 buzov almaq üçün CredAgro-ya 15,000 ABŞ dolları dəyərində ilk kredit üçün müraciətini etdi. Kredit müddətinin sonuna qədər onun 28 süd verən inəyi, 15 düyəsi, 18 donuzu və 12 buzovu vardı. Kreditdən əldə etdiyi gəlirlə, o həmçinin anbarını da düzəltdi və bu, onun fermasının gəlirini təxminən ikiqat artırmağa kömək oldu.

Onun götürdüyü ikinci kredit 27,000 ABŞ dolları dəyərində idi. Bu kredit ona daha yeni fermerlik hədəflərinə çatmağa kömək etdi. Bu kredit müddətinin sonuna qədər onun 34 süd verən inəyi, 26 düyəsi, 9 buzovu, 10 öküzü və 6 donuzu vardı. O, yeni anbarın tikintisini başa çatdırdı və mal-qarasını cins inəklərin hesabına artırdı. O həmçinin 5.8 hektar torpaq sahəsində yeni ferma tikdi və onu da işə saldı. Bütün bu müddət ərzində Əsgər öz fermasından ikinci dərəcəli istifadə edirdi. Bu gün onun 45 işçisi, 130 inəyi və 30 mindən çox cücəsi var. O, CredAgro-ya öz yeni biznesini açmağa və inkişaf etdirməyə kömək etdiyi üçün minnətdardır və təşkilatdan növbəti kreditini götürməyi planlaşdırır.

UĞUR HEKAYƏLƏRİ



İsmayıllıdan olan Mirsəməd Cəfərov 2002-ci ildən pendir hazırlanması ilə məşğul olurdu. Əvvəllər o, avtobus sürücüsü idi. Hətta o zamanlarda da o, İsmayıllıdan pendir alar və Bakıda satardı. Vaxt keçdikcə onun müştəriləri artdı və o, özü pendir hazırlanması və satışı işinə başladı. CredAgro-ya kredit üçün müraciət edərkən o, gündə 1000-1200 kq südü pendirə emal edirdi. O, fermerlərdən südü alır və hazırladığı pendiri Bakıda müştərilərinə satırdı.

2500 ABŞ dolları dəyərində ilk krediti ilə Mirsəməd Oğuz və Zaqatalada gündəlik pendir və süd məhsulları hazırlayan mağazalar açdı. O, kreditə zəmanət kimi bazarlara pendiri daşımaq üçün istifadə etdiyi Mitsubishi maşınını qoydu. Habelə onun başqa avtobusa ehtiyacı var idi və ona görə də o, Ford Tranzit almaq üçün ikinci dəfə 18000 ABŞ dollarlıq kredit üçün müraciət etdi.

Hazırda Mirsəməd öz pendir biznesini genişləndirmək üçün növbəti krediti götürmək istəyir. İlk kreditini CredAgro -dan götürəndən bəri Mirsəməd köhnə emal avadanlığını və texnologiyalarını dəyişmişdir. O, həmişə CredAgro-dan götürdüyü kreditinin ona öz biznesində uğur qazanmasına kömək etdiyini vurğulayır. Mirsəmədin böyük ailəsi və 10 işçisi var.

### Filial Şəbəkəsi

CredAgro Azərbaycanın əksər regionlarını əhatə edən geniş filial şəbəkəsinə malikdir. Müştərilərimizə yaxın olmağımız onlara sürətli və yüksək keyfiyyətli xidmətlər göstərməyimizə imkan verir. Bu gün CredAgro 13 filial və 9 sub-ofisi ilə Azərbaycanın 28 rayonunda öz xidmətlərini təklif edir:

- Abşeron yarımadasında: Abşeron və ətraf ərazilərə xidmət göstərir
- Cənubda: Cəlilabad, Masallı, Lənkəran filialları və Biləsuvar sub-ofisi
- Qərbdə: İsmayıllı, Zaqatala, Şəki, Bərdə, Mingəçevir, Gəncə və Tovuz filialları və Göyçay, Qəbələ, Balakən, Qax, Qazax və Ağstafa sub-ofisləri
- Şimalda: Xaçmaz və Quba.



## “CREDAGRO” MƏHDUD MƏSULİYYƏTLİ QEYRİ-BANK KREDİT TƏŞKİLATI

### MÜNDƏRİCAT

**Səhifə**


MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 17

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ 18-19

31 DEKABR 2009-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI:

Məcmu gəlir hesabatı 20

Maliyyə vəziyyəti hesabatı 21

Səhmdar kapitalında dəyişikliklər hesabatı 22

Pul vəsaitlərinin hərəkəti hesabatı 23-24

Maliyyə hesabatları üzrə qeydlər 25-56

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2009-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə, 2-ci və 3-cü səhifələrdə əks etdirilən müstəqil auditorların rəyində göstərilmiş müstəqil auditorların vəzifələri haqqında müddəalarla birgə oxunmalıdır və "CredAgro" Məhdud Məsuliyyətli Qeyri-Bank Kredit Təşkilatının (bundan sonra "Təşkilat") maliyyə hesabatları ilə bağlı Təşkilat rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi daşıyır.

Rəhbərlik, 31 dekabr 2009-cu il tarixində başa çatmış il üzrə Təşkilatın maliyyə vəziyyətini, əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və səhmdar kapitalında dəyişmələri əks etdirən Beynəlxalq Maliyyə Hesabatları Standartlarına ("BMHS") uyğun maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- BMHS-na uyğunluğun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi; və
- Əgər yaxın gələcəkdə Təşkilat işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimlilik prinsipi əsasında hazırlaması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Təşkilat daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Təşkilatın maliyyə hesabatlarının BMHS-na uyğun olaraq düzgün hazırlanması və Təşkilatın maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Təşkilatın aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2009-cu il tarixinə olan maliyyə hesabatları 19 mart 2010-cu il tarixində Təşkilatın İdarə Heyəti tərəfindən təsdiq edilmişdir

**İdarə Heyəti adından:**

| | |
|---|---|
| **Eldar Cəfərov**<br>**Direktor** | **Mahmud Qasımov**<br>**Maliyyə direktorunun müavini** |
| 19 mart 2010-cu il<br>Bakı, Azərbaycan Respublikası | 19 mart 2010-cu il<br>Bakı, Azərbaycan Respublikası |

CRED AGRO

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"CredAgro" Məhdud Məsuliyyətli Qeyri-Bank Kredit Təşkilatının Təsisçisinə və Direktorlar Şurasına:

***Maliyyə hesabatları üzrə auditor hesabatı***

Biz, "CredAgro" Məhdud Məsuliyyətli Qeyri-Bank Kredit Təşkilatının (bundan sonra "Təşkilat") 31 dekabr 2009-cu il tarixinə təqdim edilən maliyyə vəziyyəti hesabatı, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir hesabatı, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

***Maliyyə Hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti***

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar aiddir: maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya yanlışlıqdan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların qarşısını almaq məqsədilə daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi; müvafiq mühasibat siyasətinin seçilməsi və tətbiq edilməsi; mövcud şərtlər altında məqbul mühasibat təxminlərinin irəli sürülməsi.

***Auditorun məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də saxtakarlıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud mühasibat siyasətinin uyğunluğunun və rəhbərliyin mühasibat təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, audit rəyimizi bildirmək üçün kifayət qədər və uyğun auditor sübutu əldə etmişik.

BAKER TILLY
AUDIT AZERBAIJAN LLC

***Rəy***

Bizim rəyimizcə, əlavə edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Təşkilatın 31 dekabr 2009-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq düzgün əks etdirir.

***İzahedici paraqraf***

31 dekabr 2009-cu il tarixində başa çatmış mühasibat dövrü ərzində Təşkilatın rəhbərliyi şəxsi rəyləri və xüsusi təhlillərin əsasında 2,935 min AZN məbləğində kreditlər üzrə tam ehtiyat yaradılması qərarına gəlmişdir. Tam ehtiyat yaradıldıqdan sonra bu kreditlər balansdan tam olaraq silinmişdir.

31 dekabr 2009-cu il tarixində başa çatmış mühasibat dövrü ərzində silinmiş kreditlərlə əlaqədar olaraq diqqətinizə çatdırmaq istəyirik ki, bu kreditlərin məbləği müştərilərə verilmiş ümumi kredit portfelinin 7.9%-ni təşkil edir. Malik olduqları girov təminatını nəzərə alaraq bu kreditlərin tam dəyərsizləşmiş kateqoriyasına aid edilməsi mümkün olmasa da, onlar üzrə ödəmələrin il ərzində gecikdirilməsi və girovların satışından gözlənilən gələcək nağd vəsaitlərinin çox aşağı olması ehtimalı da nəzərə alınmışdır. Qısa dövr ərzində kredit portfelinin əhəmiyyətli hissəsini təşkil edən kreditlərin dəyərsizləşməsi, gələcəkdə Təşkilatın kredit portfelində keyfiyyət məsələlərinin ortaya çıxması ilə nəticələnə bilər.

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

# “CREDAGRO” MƏHDUD MƏSULİYYƏTLİ QEYRİ-BANK KREDİT TƏŞKİLATI

## MƏCMU GƏLİR HESABATI
## 31 DEKABR 2009-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2009-cu il tarixində başa çatmış il | 31 dekabr 2008-ci il tarixində başa çatmış il |
|---|---|---|---|
| Faiz gəlirləri | 7 | 12,676,243 | 10,759,323 |
| Faiz xərcləri | 7 | (3,693,034) | (3,570,516) |
| **Dəyərsizləşmə ehtiyatları ayrılmamışdan öncə xalis faiz gəlirləri** | | **8,983,209** | **7,188,807** |
| Faiz yaradan aktivlər üzrə ehtimal edilən zərər üçün ehtiyatlar | 8 | (3,325,594) | (398,366) |
| **Xalis faiz gəlirləri** | | **5,657,615** | **6,790,441** |
| Əmək haqqı və bonuslar | | (3,614,873) | (2,037,327) |
| İnzibati və əməliyyat xərcləri | 11 | (1,449,418) | (650,661) |
| Amortizasiya və köhnəlmə | 16,17 | (314,623) | (118,147) |
| Haqq və komissiya xərcləri | 10 | (179,148) | (71,840) |
| Xarici valyuta ilə əməliyyatlar üzrə mənfəət | 9 | 5,693 | 40,628 |
| **Qeyri-faiz gəlirləri** | | **(5,552,369)** | **(2,837,347)** |
| Digər gəlirlər | | 464,800 | - |
| Qrant | | 60 | 3,769 |
| Mənfəət vergisindən əvvəl gəlir | | 570,106 | 3,956,863 |
| Mənfəət vergisi xərci | 12 | (146,330) | (897,679) |
| **Xalis mənfəət** | | **423,776** | **3,059,184** |

**İdarə Heyəti adından:**

**Eldar Cəfərov**
**Direktor**

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

**Mahmud Qasımov**
**Maliyyə Direktorunun müavini**

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

9-41-ci səhifələrində verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Müstəqil Auditorların rəyi 2-ci və 3-cü səhifələrdə verilir.

# “CREDAGRO” MƏHDUD MƏSULİYYƏTLİ QEYRİ-BANK KREDİT TƏŞKİLATI

## MALİYYƏ VƏZİYYƏTİ HESABATI
## 31 DEKABR 2009-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2009-cu il | 31 dekabr 2008-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Pul və pul ekvivalentləri | 13 | 1,098,784 | 701,906 |
| Banklara verilmiş kreditlər və avans ödənişləri, xalis | 14 | - | 4,123,538 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 15 | 34,665,664 | 40,279,092 |
| Əmlak və avadanlıq, xalis | 16 | 2,720,947 | 1,828,167 |
| Qeyri-maddi aktivlər, xalis | 17 | 311,554 | 261,011 |
| Təxirə salınmış vergi aktivi | 12 | - | 46,263 |
| Digər cari aktivlər | 18 | 1,545,181 | 302,214 |
| **CƏMİ AKTİVLƏR** | | **40,342,130** | **47,542,191** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Maliyyə təşkilatlarına ödəniləcək vəsaitlər | 19 | 31,530,245 | 38,063,730 |
| Digər uzunmüddətli öhdəliklər | | - | 111,090 |
| Təxirə salınmış vergi öhdəliyi | 12 | 29,412 | - |
| Digər cari öhdəliklər | 20 | 220,911 | 317,580 |
| **Cəmi öhdəliklər** | | **31,780,568** | **38,492,400** |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | 21 | 4,523 | 4,523 |
| Kapital ehtiyatları | 22 | 1,681,963 | 2,593,968 |
| Bölüşdürülməmiş mənfəət | | 6,875,076 | 6,451,300 |
| **Cəmi kapital** | | **8,561,562** | **9,049,791** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **40,342,130** | **47,542,191** |

**İdarə Heyəti adından:**

**Eldar Cəfərov**
**Direktor**

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

**Mahmud Qasımov**
**Maliyyə Direktorunun müavini**

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

9-41-ci səhifələrində verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Müstəqil Auditorların rəyi 2-ci və 3-cü səhifələrdə verilir.

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI
## 31 DEKABR 2009-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2008-ci il** | | **4,523** | **2,593,968** | **3,392,116** | **5,990,607** |
| Cari il üzrə mənfəət | | - | - | 3,059,184 | 3,059,184 |
| **31 dekabr 2008-ci il** | | **4,523** | **2,593,968** | **6,451,300** | **9,049,791** |
| Kapital ehtiyatlarının istifadəsi | 14 | - | (912,005) | - | (912,005) |
| Cari il üzrə mənfəət | | - | - | 423,776 | 423,776 |
| **31 dekabr 2009-cu il** | | **4,523** | **1,681,963** | **6,875,076** | **8,561,562** |

**İdarə Heyəti adından:**

**Eldar Cəfərov**
**Direktor**

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

**Mahmud Qasımov**
**Maliyyə Direktorunun müavini**

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

9-41-ci səhifələrində verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Müstəqil Auditorların rəyi 2-ci və 3-cü səhifələrdə verilir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI
## 31 DEKABR 2009-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2009-cu il tarixində başa çatmış il üzrə | 31 dekabr 2008-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Mənfəət vergisi çıxılmazdan öncə mənfəət | | 570,106 | 3,956,863 |
| Xalis gəlirin əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitlərinə uyğunlaşmasına dair düzəlişlər: | | | |
| Amortizasiya və köhnəlmə | | 314,623 | 118,147 |
| Müştərilərə verilmiş kreditlər üzrə zərər ehtiyatları | | 396,208 | 398,366 |
| Banklara verilmiş kreditlər üzrə zərər ehtiyatları | | - | (38,894) |
| Xarici valyuta ilə əməliyyatlar üzrə mənfəət | | (5,693) | (40,628) |
| Yığılmalarda xalis dəyişikliklər | | 200,234 | (751,449) |
| Əməliyyat aktivlərində dəyişikliklərdən əvvəl əməliyyat mənfəəti | | 1,475,478 | 3,642,405 |
| Maliyyə aktiv və öhdəliklərində dəyişikliklər: | | | |
| Müştərilərə verilmiş kreditlər və avans ödənişləri | | 5,312,793 | (12,591,017) |
| Banklara verilmiş kreditlər və avans ödənişləri | | 4,085,100 | (204,084) |
| Digər cari aktivlər | | (629,782) | (181,266) |
| Digər cari öhdəliklər | | 112,226 | 1,272 |
| Digər uzunmüddətli öhdəliklər | | (111,090) | 84,198 |
| Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri, mənfəət vergisi və faizlərdən əvvəl | | 10,244,725 | (9,248,492) |
| Ödənilmiş mənfəət vergisi | | (892,735) | (648,314) |
| Ödənilmiş faizlər | | (3,435,666) | (3,179,742) |
| **Əməliyyat fəaliyyətindən daxil olan/(yönəlmiş) xalis pul vəsaitləri** | | **5,916,324** | **(13,076,548)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| İnvestisiya fəaliyyətləri | | | |
| Əmlak və avadanlığın alınması | | (1,180,847) | (1,134,873) |
| Qeyri-maddi aktivlərin alınması | | (77,099) | (193,872) |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(1,257,946)** | **(1,328,745)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Maliyyə aktivləri | | | |
| Uzunmüddətli borcların ödənilməsi | | (9,545,218) | (6,336,577) |
| Uzunmüddətli borclar üzrə gəlir | | 6,190,030 | 20,644,951 |
| Kapital ehtiyatlarının istifadəsi | 22 | (912,005) | - |
| **Maliyyə fəaliyyətinə (yönəlmiş)/daxil olan xalis pul vəsaitləri** | | **(4,267,193)** | **14,308,374** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI
## 31 DEKABR 2009-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | | | |
|---|---|---|---|
| Məzənnə fərqlərinin pul və pul vəsaitlərinə təsiri | | 5,693 | 3,009 |
| PUL VƏ PUL VƏSAİTLƏRİNDƏ XALİS ARTMA/(AZALMA) | | 396,878 | (93,910) |
| PUL VƏ PUL VƏSAİTLƏRİ, *ilin əvvəlinə* | 13 | 701,906 | 795,816 |
| PUL VƏ PUL VƏSAİTLƏRİ, *ilin sonuna* | 13 | 1,098,784 | 701,906 |

**İdarə Heyəti adından:**

**Eldar Cəfərov**
**Direktor**

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

**Mahmud Qasımov**
**Maliyyə Direktorunun müavini**

19 mart 2010-cu il
Bakı, Azərbaycan Respublikası

9-41-ci səhifələrində verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Müstəqil Auditorların rəyi 2-ci və 3-cü səhifələrdə verilir.

## 1. FƏALİYYƏTİN TƏSVİRİ

“CredAgro” Məhdud Məsuliyyətli Qeyri-Bank Kredit Təşkilatı (“Təşkilat”) Azərbaycan Respublikasında iqtisadiyyatın müxtəlif sektorlarına kreditlərin verilməsi fəaliyyəti ilə məşğuldur. Təşkilat, 28 avqust 2000-ci il tarixində Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq əsaslandırılmışdır.

Təşkilatın təsisçisi, Amerika Birləşmiş Ştatlarının qanunlarına müvafiq olaraq qeydiyyatdan keçən və fəaliyyət göstərən, “ACDI/VOCA” müəssisəsidir və bu müəssisə, Təşkilatın nizamnamə kapitalının 100%-ə malikdir. Təşkilatın ilk məqsədi kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən fərdiləri kiçik və mikro kreditlərlə təmin etməkdir.

Təşkilat Həsən Əliyev küçəsi 63, Bakı şəhəri, Azərbaycan Respublikası ünvanında yerləşir.

Təşkilat, Birləşmiş Ştatların Beynəlxalq İnkişaf üzrə Agentliyinin (“USAİD”) ACDI/VOCA-ya 5,314,205 ABŞ dolları (4,739,208 AZN) məbləğində Azərbaycan Kənd Krediti Layihəsinə dəstək göstərmək məqsədilə verilmiş qrantın nəticəsində təsis edilmişdir. Təşkilatın fəaliyyəti, Azərbaycan Respublikası Mərkəzi Bankı (“ARMB”) tərəfindən tənzimlənir və 28 avqust 2006-cı il tarixli 06/06-1891 lisenziya əsasında Təşkilat fəaliyyət göstərir. Təşkilatın əsas fəaliyyəti kreditlərin verilməsindən ibarətdir.

## 2. TƏQDİMATIN ƏSASLARI

### Mühasibat əsasları

Təşkilatın hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (“BMHS”) və Beynəlxalq Maliyyə Standartlarına Şərhlər Komitəsi (“BMHSŞK”) tərəfindən dərc edilən şərhlər əsasında hazırlanmışdır. Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı (“AZN”) ilə təqdim edilir.

Bu maliyyə hesabatları Təşkilat tərəfindən “davamlı fəaliyyət” prinsipi əsasında tərtib edilmişdir. Rəhbərlik və təsisçi Təşkilatın Azərbaycan Respublikasındakı fəaliyyətini daha da inkişaf etdirmək niyyətindədir.

Bəzi maliyyə alətlərinin ədalətli dəyəri istisna olmaqla, bu maliyyə hesabatları, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır. İşgüzar fəaliyyətin əsasən Azərbaycan Respublikasında həyata keçirildiyinə görə Təşkilatın funksional maliyyə vahidi də Azərbaycan manatıdır. Təşkilat mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və hesabatlara BMHS-na uyğunlaşdırmaq məqsədilə düzəlişlər verilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırmaq məqsədilə yenidən təsnifləşdirilməsi aiddir.

### Əsas təxminlər

BMHS-a əsasən hesabatların hazırlanması zamanı rəhbərlikdən müəyyən təxminlər etmək tələb olunur ki, bu da hesabatdakı rəqəmlərə təsir göstərir. Bu təxminlər, maliyyə hesabatlarının hazırlanması tarixinə Təşkilat rəhbərliyinə məlum olan məlumatlara əsaslanır. Ona görə də, faktiki nəticələr, bu təxminlərdən fərqlənə bilər. Dəyişməyə ən çox məruz qala biləcək əsas təxminlərə ehtimal edilən itkilər üzrə yaradılan ehtiyatlar və maliyyə alətlərinin ədalətli dəyəri aiddir.

Müştərilərə verilən kreditlər ehtimal edilən itkilər üzrə yaradılan ehtiyatlar çıxılmaqla, amortizasiya olunmuş ilkin dəyərilə ölçülür. Ehtimal edilən itkilər üzrə ehtiyatın yaradılması zamanı əsasən fikir yürütmək lazım gəlir. Ehtimal edilən itkilər üzrə Təşkilatın kredit portfelində baş verən zərərləri qarşılamaq üçün Təşkilat rəhbərliyi tərəfindən istifadə edilən təxminlər əsasında məqsədə uyğun hesab edilən məbləğdə ehtiyat yaradılır. Şübhəli kreditlər üzrə yaradılan ehtiyatlar belə aktivlərin silinə bilinməsi və bu zaman baş verə biləcək itkilərin ehtimalına əsaslanır. Bu təxminlər tarixi təcrübəyə və statistik vasitələrə əsaslanaraq edilir. Bu təxminlərin hesablanması zamanı həmçinin rəhbərliyin peşəkar mövqeyindən də istifadə edilir.

Təşkilat rəhbərliyi hesab edir ki, ehtiyatlarla bağlı təxminlər ən əsas subyektivlik daşıyan məqamdır çünki: (i) gələcəkdəki itkilərin faizi və şübhəli kreditlər üzrə yarana biləcək itkilərin ölçülməsi üzrə edilən ehtimallar müxtəlif dövrlər arasında dəyişir, hesabat tarixində isə bu ehtimallar yalnız cari təcrübəyə əsaslanır, və (ii) Təşkilatın təxmin etdiyi (yaradılan ehtiyatlar şəklində öz əksini tapmış) itkilərlə faktiki itkilər arasında əhəmiyyətli fərqlər yaranarsa, bu fərqlər Təşkilatın gələcəkdəki məcmu gəlirlərinə, eləcə də maliyyə vəziyyəti göstəricilərinə təsir göstərə bilər. Ehtimal edilən zərərlər üzrə Təşkilatın təxminlərinə, həmçinin əvvəlki təcrübə, müştərilərin davranışı, kredit verilən müəssisənin cari keyfiyyət göstəriciləri və ümumi iqtisadi şərait də daxildir. Bu göstəricilərlə gələcəkdə baş verə biləcək faktiki itkilər arasında birbaşa əlaqə olmaya bilər.

Vergi bazasını artıran bütün müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivi tanınır. Bu zaman Təşkilat, gələcəkdə əldə ediləcək mənfəətlə bağlı təxminlərə əsaslanaraq ehtimal edilən gələcək mənfəətin imkan verdiyi qədər vergi aktivi tanıyır.

**Əməliyyat valyutası**

Təşkilatın hər bir müəssisəsinin maliyyə hesabatlarına daxil edilən maddələr Təşkilata (bundan sonra “Əməliyyat valyutası”) aid olan hadisə və şəraitlərin iqtisadi mahiyyətini ən yaxşı şəkildə əks etdirən valyutanı istifadə etməklə qiymətləndirilir. Bu maliyyə hesabatların əməliyyat valyutası Azərbaycan manatıdır (“AZN”).

## 3. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

**Əsas tanınma və ölçülmə qaydaları**

Təşkilat müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdəliyini balansda tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı hesablaşma günü əməliyyat balansda tanınır. Sonradan əməliyyat və hesablaşma tarixləri arasında ədalətli dəyər üzrə ölçülən maliyyə alətlərinin adi yolla alınması zamanı əldə edilən alətlərin tanınması üçün istifadə edilən prinsiplərdən istifadə edilir.

Məcmu gəlir hesabatı vasitəsilə ədalətli dəyərdə tanınan maliyyə alətləri istisna olmaqla, bütün digər maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür və bu alətlərin alınması və ya buraxılması ilə birbaşa bağlı olan xərclər onun balans dəyərinə əlavə edilir. Sonrakı dövrlərdə bu alətlərin dəyərinin yenidən ölçülməsi ilə bağlı mühasibat prinsipləri aşağıda öz əksini tapır.

**Pul və pul ekvivalentləri**

Pul və pul ekvivalentləri elə aktivlərə deyilir ki, onları nağd vəsaitlərə istənilən zaman tez bir şəkildə çevirmək mümkün olsun və bu zaman onların dəyərində çox cüzi bir fərq baş versin. Overnayt depozitləri istisna olmaqla, bütün qısamüddətli banklararası vəsaitlər, digər banklardan alınacaq vəsaitlərdə təsnif edilmişdir. İstifadə məhdudiyyəti olan vəsaitlər isə pul və pul ekvivalentlərinə daxil edilməmişdir. Pul və pul ekvivalentləri amortizasiya olunmuş ilkin dəyər ilə ölçülür.

**Digər banklardan alınacaq vəsaitlər**

Təşkilat digər banklara, ticarət və qeyri-derivativ debitor borclar istisna olmaqla, əvvəlcədən təyin edilmiş və ya müəyyən edilə bilən tarixlərdə ödəmə müddəti çatan vəsaitləri, digər banklardan alınacaq vəsaitlər kateqoriyasına aid edir. Digər banklardan alınacaq vəsaitlər amortizasiya olunmuş ilkin dəyəri ilə ölçülür.

**Müştərilərə verilən kreditlər**

Müştərilərə verilən kreditlər maliyyə hesabatlarının digər kateqoriyaları üzrə təsnifləşdirilən aktivlərdən fərqli olaraq sabit və ya müəyyən edilən ödənişli və fəal bazara çıxarılmayan qeyri-törəmə aktivlərdir. Təşkilat tərəfindən verilən kreditlər ilk olaraq ədalətli dəyər və əməliyyat üzrə aidiyyatı xərclər həcmində tanınır. Hesablanmış ədalətli dəyər kreditin ədalətli dəyərinə bərabər olmadıqda, misal üçün, kredit bazar qiymətindən aşağı dəyərlə verildikdə, hesablanmış ədalətli dəyərlə kreditin ədalətli dəyəri arasındakı fərq kreditin ilkin tanınması üzrə zərəri kimi qeydə alınır və bu zərərlərin xüsusiyyətindən uyğun olaraq məcmu gəlir hesabatına daxil edilir. Daha sonra, kreditlər effektiv faiz metodunu istifadə etməklə amortizasiya dəyəri ilə qeydə alınır. Müştərilərə verilən kreditlər ehtimal edilən zərəri üçün hər hansı ehtiyatlar çıxılmaqla uçota alınır.

**Amortizasiya olunmuş ilkin dəyərində tanınan maliyyə aktivləri üzrə ayrılan ehtiyatlar**

Maliyyə aktivlərinin və ya aktivlər qrupunun dəyərində azalma yaranması ilə bağlı rəhbərliyin əlində hər hansı bir obyektiv sübut olduğu hallarda, Təşkilat bu aktivlər üzrə itkiləri qarşılamaq məqsədilə ehtiyat yaradır. Ehtimal edilən itkilər, gələcəkdə zəmanət və alınan girovlar da daxil olmaqla, amortizasiya olunmuş ilkin dəyərində ölçülən aktivlər üzrə gələcəkdə əldə edilə biləcək pul vəsaitlərinin, maliyyə aktivinin yaranması tarixində ilkin effektiv faiz dərəcəsindən istifadə edilərək diskont edilməsi nəticəsində yaranmış dəyərlə bu aktivlərin qalıq dəyəri arasındakı fərq kimi hesablanır. Sonrakı dövrlərdə, ehtimal edilən itkinin məbləği azalırsa, və azalma həqiqətən də ehtiyat yaradılmasından sonra baş vermiş hər hansı bir hadisə ilə bağlıdırsa, bu zaman belə aktivlər üzrə yaradılan ehtiyatlar geri qaytarılır. İlkin dəyəri ilə ölçülən maliyyə aktivləri üçün isə ehtimal edilən itkilər, bu aktivlərdən gələcəkdə əldə edilə biləcək pul vəsaitlərinin bu tip aktivlər üzrə mövcud bazar faiz dərəcəsindən istifadə edərək diskont edilməsi nəticəsində yaranmış dəyərlə bu aktivlərin qalıq dəyəri arasındakı fərq kimi hesablanır. Bu tip ehtiyatlar yaradıldıqdan sonra geri qaytarılmır.

Ehtimal edilən itkilərin hesablanması aktivlər üzrə risk analizinə əsaslanır, və yaradılan ehtiyat rəhbərliyin fikrincə bu aktivlər üzrə itkiləri qarşılamaq üçün kafi hesab edilir. Ehtiyatlar, portfel üçün xüsusi əhəmiyyət kəsb edən risk daşıyan aktivlərin fərdi olaraq, nisbətən az əhəmiyyətli aktivlərin isə kollektiv şəkildə qiymətləndirilməsi əsasında yaradılır.

Ehtimal edilən itkilərdəki dəyişikliklər birbaşa məcmu gəlir hesabatına aid edilir, və yaradılmış ehtiyatlar aktivlərin qalıq dəyərini təqdim edərkən onların balans dəyərindən çıxılır. Təşkilat rəhbərliyi ehtiyat yaradılması üçün obyektiv sübutun olmasına baxarkən borc götürənin və ya qiymətli kağızı buraxan tərəfin likvidlik, ödəmə qabiliyyəti, biznes və maliyyə risklərinə məruz qalması, bu kimi maliyyə aktivlərinin pula çevrilə bilmək qabiliyyətindəki dinamika, milli və yerli iqtisadiyyatın inkişafındakı trendlər, alınmış zəmanət və girovların bazar dəyəri kimi göstəricilərdən də istifadə edir. Bu və digər göstəricilər, fərdi olaraq və ya qrup şəklində aktivlər üzrə ehtimal edilən zərərin yaranması üçün obyektiv sübutun olmasını təmin edir.

Təşkilat amortizasiya olunmuş ilkin dəyəri üzrə ölçülən aktivlər üçün ehtimal olunan itkilər üzrə ehtiyat hesabı yaradır, ilkin dəyəri üzrə ölçülən aktivlər üçün isə birbaşa silinmə üsulundan istifadə edir. Qeyd etmək lazımdır ki, itkilərin təxmin edilməsi müəyyən qədər subyektivlik daşıyır. Müəyyən dövrlərdə Təşkilatın faktiki uğradığı zərərlərin yaradılan ehtiyat məbləğindən fərqli olmasının mümkünlüyünə baxmayaraq, ehtiyatın mümkün olan zərərləri qarşılamaq üçün kifayət olması əsasən rəhbərliyin qərarıdır.

**Maliyyə institutlarına ödəniləcək vəsaitlər**

Banklara ödəniləcək vəsaitlər onların ilkin ədalətli dəyərində tanınır. Sonralar ödəniləcək məbləğlər amortizasiya olunmuş dəyərdə göstərilir və xalis gəlir və müddətindən əvvəl ödəmə dəyəri arasında fərq məcmu gəlir hesabatında effektiv faiz metodu əsasında borc müddəti üzrə tanınır.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı bütün iştirakçılar tərəfindən ödənilmiş payların məbləğidir. Payların ümumi sayı Cəmiyyətin iştirakçı kapitalının iştirakçıları arasında mütənasib bölünəcək. Nizamnamə kapitalının artırılıb və ya azaldılması təsisçilərin ümumi yığıncağının qərarı ilə həyata keçirilə bilər.

**Gəlir və xərclərin tanınması**

Faiz gəlir və xərcləri məcmu gəlir hesabatında bütün borc alətləri üçün effektiv faiz metodundan istifadə etməklə hesablama metoduna əsasən qeydə alınır. Bu metod, faiz gəlir və xərclərinin bir hissəsi kimi müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün haqları, əməliyyat xərclərini və digər mükafat və ya diskont edilmiş vasitələri təxirə salır. Effektiv faiz dərəcəsi maliyyə alətinin təxmin edilmiş istifadə müddəti üzrə təxmin edilən gələcək ödəniləcək və ya alınacaq vəsaitləri və ya müvafiq olduqda, daha qısa müddət üzrə maliyyə aktivlərin və ya maliyyə öhdəliklərin balans dəyərini dəqiq diskontlaşdıran dərəcədir.

Köhnəlmə nəticəsində maliyyə aktivi hesabdan silinirsə, bu kreditlər üzrə faiz gəliri sonradan mümkün zərərlərin qiymətləndirilməsi üçün istifadə edilmiş effektiv faiz dərəcəsi nəzərə alınmaqla gələcək pul vəsaitləri hərəkətinin diskontlaşdırılması üzrə istifadə edilən faiz dərəcəsi vasitəsilə tanınır. Aktivlərin ədalətli dəyəri üzrə yığılmış faizləri faiz dərəcəsi kimi təsnifatlaşdırılır.

Kreditin verilməsi ilə bağlı yaranan komissiyalar və bununla əlaqədar olan birbaşa xərclərlə birlikdə təxirə salınır və kreditlər üzrə effektiv faiz dərəcəsinə dair düzəliş kimi tanınır. Kredit öhdəliyinin kredit müqaviləsinə keçirilməsi mümkün olduqda kredit öhdəliyi ilə bağlı komissiyalar və bununla əlaqədar olan birbaşa xərclərlə birlikdə təxirə salınaraq yekun kredit üzrə effektiv faiz dərəcəsinə dair düzəliş kimi tanınır. Kredit öhdəliyinin kredit müqaviləsinə keçirilməsi mümkün olmadıqda kredit öhdəliyi ilə bağlı komissiyalar kredit öhdəliyinin qalıq müddəti üzrə məcmu gəlir hesabatında tanınır. Kreditin verilməsi haqqında öhdəliyinin müddəti başa çatdıqda və bu öhdəlik kredit müqaviləsi ilə əvəz olunmadıqda kredit öhdəliyin haqqı məcmu gəlir hesabatında tanınır. Kredit xidmətləri üzrə haqlar xidmətlər görülən zaman gəlir kimi tanınır.

**Xarici valyuta əməliyyatları**

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, balans tarixində mövcud olan valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir. Bu çevrilmələr zamanı yaranan gəlir və xərclər məcmu gəlir hesabatında xarici valyuta ilə əməliyyatlar üzrə gəlirlər (zərər çıxılmaqla) sətrində göstərilir.

